Təsisçi: Azərbaycan Tibb Universiteti

# Təbib

Qəzet 1933 -cü ildən çıxır. http://www.amu.edu.az № 21 (1660) 15 dekabr 2017 - ci il Qiyməti 50 qəpik

# Azərbaycan Prezidenti İlham Əliyev ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edib

**Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim, xalqımızın ümummilli lideri Heydər Əliyevin vəfatından 14 il keçir.**

AZƏRTAC xəbər verir ki, dekabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət ediblər.

Milli Məclisin deputatları, nazirlər, komitələrin, şirkətlərin və idarələrin rəhbərləri, respublika ictimaiyyətinin nümayəndələri də Fəxri xiyabana gəlmişdilər.

Prezident İlham Əliyev Ulu Öndərin məzarı önünə əklil qoydu.

Azərbaycanın dövlət himni səsləndi.

Dövlətimizin başçısı İlham Əliyev və ailə üzvləri Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üzərinə gül dəstələri qoydular.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad edildi, məzarları üstünə gül dəstələri düzüldü.

Ümummilli lider Heydər Əliyevin məzarının ziyarəti mərasimində Baş nazir Artur Rasi-zadə, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və digər rəsmi şəxslər iştirak ediblər.

Azərbaycanın dahi oğlu Heydər Əliyevin əbədiyyətə qovuşmasının 14-cü ildönümü günü - dekabrın 12-də də paytaxt sakinləri, respublikamızın rayon və şəhərlərinin nümayəndələri, xarici ölkələrdən gəlmiş qonaqlar Fəxri xiyabanda xalqımızın Ümummilli Liderinin xatirəsini dərin ehtiramla yad edir, onun məzarı önünə əklillər, gül dəstələri qoyur, müdrik dövlət xadiminə Allahdan rəhmət diləyirlər.



## BU SAYIMIZDA



Böyük Elmi Şura yeni tərkibdə ilk iclasını keçirib 2



ATU-da Ulu Öndərin xatirəsi anılıb 3

Yeni kafedra müdirləri seçilib 4



İCTİMAİ NƏZARƏT VƏ MƏSLƏHƏT ŞURASI REYD KEÇİRDİ 4



Yeditepe Universitetinin Xəstəxanasının nümayəndə heyəti ATU-nun qonağı olub 3

Ortopedik stomatologiya kafedrasında tələbələr üçün aktual mövzuda seminar 4



ATU əməkdaşlarının Qubada maarifləndirmə görüşləri 4

II müalicə-profilaktika fakültəsinin TEC-nin aktiv tələbələri ilə görüş keçirilib 5

ATU-nun Tədris Terapevtik Klinikasının Dializ Mərkəzi ABŞ-ın tanınmış jurnalında qeydiyyata alınıb 6

Tələbələr üçün "Brain Mania" klubu yaradıldı 5

# Böyük Elmi Şura yeni tərkibdə ilk iclasını keçirib

**Dekabrın 5- də Böyük Elmi Şuranın yeni tərkibdə ilk iclası keçirilib. Yığıncağı açan ATU-nun rektoru, professor Gəray Gəraybəyli gündəliyə keçməzdən öncə şuranın yeni tərkibi haqqında məlumat verib: " Artıq bu yeni Elmi Şuranın ilk iclasıdır. Tərkibi ilə bağlı bəzi məsələlərlə sizi tanış etmək istəyirəm. Ali Təhsil Müəssisəsinin Elmi Şurası haqqında «Əsasnamə»yə əsasən, Elmi Şuranın tərkibi hər 5 ildən bir seçilir. Əsasnaməyə görə, Elmi Şuranın tərkibi ali təhsil müəssisəsində tutduqları vəzifələrinə görə və seçki yolu ilə seçilən üzvlərdən formalaşdırılır. Elmi Şuranın tərkibinə tutduqları vəzifələrə görə rektor, elmi katib, prorektorlar, rektorun müşaviri, ATU əməkdaşlarının və tələbələrinin Həmkarlar İttifaqı Komitəsinin sədrləri, ATU-nun Klinikalarının direktorları, Mərkəzi Laboratoriyanın müdiri, Tədris və İnnovasiya şöbələrinin müdirləri, həmçinin İctimai Nəzarət Şurasının sədr müavini olmaqla 26 nəfər daxil edilib. Həmin sayın 20%-dən çox miqdarında yer üçün ayrı-ayrı fakültələr arasında say kvotası gözlənilməklə, əməkdaşların ümumi yığıncağında seçkilər keçirilmiş və müxtəlif kafedralardan 26 nəfər nümayəndə seçilib. Həmçinin 6 nəfər tələbə dekanlar da seçki yolu ilə Şuraya üzv seçilib. Beləliklə, 23 noyabr tarixində Elmi Şuranın tərkibi mənim tərəfindən təsdiq edilməklə hazırki say tərkibi 58 nəfər olub. Bu tərkibdə seçilən şuranın hər bir üzvünə uğurlar arzulayıram."**

Rektor daha sonra qeyd edib ki, «Əsasnamə»yə əsasən, Elmi Şuranın katibi bu şuraya seçilmiş üzvlər arasından açıq səsvermə yolu ilə seçilir. Elmi Şuranın katibliyinə namizədliyi irəli sürülmüş universitetin elmi katibi, professor Nazim Pənahov səsvermə yolu ilə yekdilliklə seçilib.

Sonra istehsalat təcrübəsi şöbəsinin müdiri, dosent Şəfa Əliyevin "Azərbaycan Tibb Universitetində 2016/2017-ci tədris ilində keçirilən peşə təcrübəsinin yekunları və tibb universiteti tələbələrinin istehsalat təcrübəsinin hazırlığının yaxşılaşdırılması" barədə məruzəsi dinlənilib.

Məruzəçi 2016/2017-ci tədris ilində müvafiq fakültə və kurs tələbələrinin qış və yay imtahan sessiyalarından sonrakı peşə təcrübəsi haqqında ətraflı məlumat verərək qeyd etdi ki, tələbələri peşə təcrübəsinə göndərərkən Azərbaycan Respublikasının Səhiyyə nazirinin 10 iyun 2014-cü il tarixli 51 saylı, həmçinin müvafiq kurslar üzrə ATU- nun rektoru, professor Gəray Gəraybəylinin əmrlərinə istinad edilmişdir. Səhiyyə nazirinin 2014-2017-ci illər üçün nəzərdə tutulan yeni əmrinə əsasən elmi tədqiqat institutları, Bakı şəhərində fəaliyyət göstərən gigiyena-epidemioloji xidmət müəssisələri, əczaçılıq müəssisələri, Bakı şəhərindəki müalicə-profilaktika müəssisələri, Respublika ərazisində fəaliyyət göstərən mərkəzi rayon xəstəxanaları və müalicə diaqnostika mərkəzləri, Naxçıvan MR və respublika ərazisindəki şəhər səhiyyə şöbələrinin tabeçiliyində olan bütün tibb müəssisələri, ATU-nun tədris terapevtik, tədris cərrahiyyə, onkoloji və stomatoloji klinikaları, həmçinin bir sıra özəl tibb müəssisələri təcrübə bazaları kimi tələbələrin istifadəsinə verilmişdir. Bu tədris ilində də Bərdə, Cəlilabad, Füzuli, Qazax, Qəbələ, Quba, Lənkəran, Siyəzən, Şamaxı, Şirvan, Zaqatala müalicə diaqnostika mərkəzlərindən, Neftçilər xəstəxanasından da təcrübə bazası kimi istifadə olunmuşdur. Bəzi özəl tibb müəssisələri ilə müqavilə müddəti bitdiyindən 7 yeni bazalarla müqavilə bağlanmış və təcrübə bazası kimi istifadə olunmuşdur.

Səhiyyə nazirinin yeni əmrinə əsasən Analitik Ekspertiza mərkəzi, «Azerimed MMC», «Dokta MMC», «Maymed MMC» apteklər şəbəkəsindən əczaçılıq fakültəsinin tələbələri üçün təcrübə bazası kimi istifadə olunmuşdur.

Ş.Əliyev istehsalat təcrübəsinin keçirilməsinə tədris hissəsinin rəhbərliyi ilə fakültələrin və peşə təcrübəsinin dekanlıqlarının, eləcə də hərbi tibb fakültəsi də daxil olmaqla 26 aidiyyatı olan kafedranın məsuliyyət daşıdığını söylədi: "2016-2017- ci tədris ilində 86 müəllim yay və qış peşə təcrübəsinin keçirilməsinə rəhbərlik etmişdir (1 nəfər professor, 15 nəfər dosent, 7 nəfər baş müəllim, 47 nəfər assistent). Hərbi Tibbi fakültəsində 16 nəfər zabit heyəti dinləyicilərin ixtisas və qoşun təcrübəsinə rəhbərlik etmişlər".

Sözünə davam edən məruzəçi bildirdi ki, 2016-2017- ci tədris ilində yaz imtahan sessiyasından sonra 3136 nəfər istehsalat təcrübəsində olublar. Onlardan 1958 nəfəri I və II müalicə profilaktika, 428 nəfəri stomatologiya, 313 nəfəri tibbi səhiyyə, 161 nəfəri əczaçılıq, 276 nəfəri isə hərbi tibb fakültələrinin tələbələridir. Bütün fakültələr üzrə yaz imtahan sessiyasından sonra 298 nəfər xarici tələbə təcrübəni öz vətənlərində keçiblər.

Onun sözlərinə görə hazırlıq mərhələsində təcrübəyə başçılıq edəcək, həmçinin rayonlara ezam olunacaq müəllimlər barədə məlumatlar ümumi və kadrlar şöbələrinə və mühasibatlığa bildirilmişdir. Təcrübə bazalarının rəhbərlər arasında bölüşdürülməsi zamanı kafedraların verdikləri təqdimatlar əmrin tərtibatında nəzərə alınmışdır. Bütün kurslar üzrə əmrlər təcrübə başlamazdan bir ay əvvəl hazırlanaraq rektor tərəfindən imzalandıqdan sonra müvafiq məktublar bazalara təcrübə başlamazdan bir həftə əvvəl çatdırılmışdır.

O, qeyd etdi ki, bu tədris ilində də xaricdə təcrübə keçmək üçün göndərilən tələbələrin sayı artmışdır. Bu tədris ilində Türkiyədə 147, Almaniyada 156, ABŞ- da 1, Səudiyyə Ərəbistanında isə 1 tələbə təcrübə keçmişdir. Ümumiyyətlə, 2007-2008-ci tədris ilindən bu tədris ilinə qədər qardaş Türkiyədə 1579 nəfər, Avropa ölkələrində isə 356 nəfər (onlardan 324 nəfəri Almaniyada), təcrübə keçiblər.

"Peşə təcrübəsinin gedişində, ona nəzarət edilməsində öz işimizdən razı qala bilmərik, heç şübhəsiz təcrübənin təşkili, keçirilməsi məsələlərində müəyyən çatışmazlıqlar var"- deyən Şəfa Əliyev diqqətə çatdırdı ki, hörmətli rektorumuz professor G. Gəraybəylinin verdiyi bir sıra göstəriş və tövsiyyələr də bu hesabat məruzəsində öz əksini tapıb. Belə ki, istehsalat təcrübəsinin gedişi və yekunları ilə bağlı yeni proqramın hazırlanması baxımından aidiyyatı olan kafedralara müraciət edilmiş, bacarıqların qiymətləndirilməsinə dair suallara yenidən baxılması tövsiyyə olunmuşdur.

Məruzə ətrafında çıxış edən kafedra müdirləri Elmira Əliyeva, Elçin Ağayev, Məhbubə Vəliyeva və Ağa Paşayev hesabatı qənaətbəxş qiymətləndirərək tələbələrin peşə təcrübəsi ilə bağlı öz fikirlərini söylədilər. Natiqlər bu sahədə əldə olunan nailiyyətlərlə yanaşı problemlərin də olduğunu bildirdilər və bunların aradan qaldırılması istiqamətində bir sıra təkliflər irəli sürdülər.



Müzakirələrə yekun vuran professor G.Gəraybəyli nəzəri biliklərin təcrübədə möhkəmləndirilməsinin əhəmiyyətinə diqqəti yönəldərək bu sahədə mövcud olan problemlərin həlli yollarından danışdı: "Tədrisin, bütövlükdə mütəxəssis hazırlığının əsas sahələrindən biri də təcrübədir. Peşə təcrübəsi praktik vərdişlərin əldə olunması deməkdir. Tələbə il ərzində ixtisas fənləri ilə yanaşı nəzəri biliklərini də ildən ilə təkmilləşdirməli və praktiki vərdişlərə yiyələnməlidir.



Təbii ki, istehsalat təcrübəsinin hər bir həkimin formalaşmasında böyük rolu var.

Bütün kafedraların proqramlarına ən azından yenidən baxılmalıdır. Və bu proqramlar dünyadakı tələblərlə uyğunluq təşkil etməlidir. Bu barədə istehsalat təcrübəsi dekanlığına tapşırıq verilib, artıq bu istiqamətdə işlər gedir. Əminəm ki, yaxın bir vaxtda bu proqram hazırlanıb və gələn ildən etibarən istifadə olunacaq. Bu istiqamətdə Beynəlxalq təcrübə çox əhəmiyyətlidir. Tükiyənin və Avropanın tibb fakültələrinin təcrübə proqramlarını, eləcə də təcrübə keçmə formalarını biz öyrənməliyik.

Şəfa müəllim burada qeyd etdi ki, təcrübə rəhbərləri bu məsələdə çox məsuliyyət daşıyır. Bəzən müəllimlər öz istədiyi xüsusi zonalara gedir və başqa yerə getməkdən boyun qaçırır. Mən hesab edirəm ki, eyni adam bir yerə hər il getməməlidir. Əvvəllər bu iş könüllü-könülsüz olurdu və bu da ümumi işin keyfiyyətini aşağı salırdı.

İstər Türkiyədə, istər Avropada və digər ölkələrdə təcrübəni keçməyi arzu edən tələbələrin sayı ildən-ilə artır. Lakin çox təəssüf ki, bəzən tələbələrlə bağlanan müqavilənin şərtlərinə əməl olunmur. Müxtəlif kampaniyalar tərəfindən müqavilədə başqa şey vəd edilir, tələbələrə isə başqa şəraitli klinikalar göstərilir. Bu da haqlı olaraq tələbələrin narazılığına səbəb olur. Hazırda bu məsələylə bağlı məhkəmələrə müraciətlər olunub. Əgər hər hansı bir tələbə öz şəxsi kanallarından istifadə edib, hansısa klinika ilə əlaqə yaradıb universitetin tələblərinə uyğun sənədləri oradan gətirə bilərsə həmin tələbəyə yaşıl işıq yandırılacaq, heç bir problemi olmayacaq. Sevindirici haldır ki, xaricdən olan tələbələr də artıq bizim klinikalrda təcrübə keçmək istəyirlər. Bu da təcrübə rəhbərlərinin məsuliyyətini bir daha aqrtırır. Mən də hesab edirəm ki, istehsalat təcrübəsinin fəaliyyəti qənaətbəxşdir. Lakin hələ problemlərimiz də var. Əminəm ki, biz bunları da gələcəkdə həll edəcəyik".

Müxtəlif məsələlərə də toxunan universitetin rəhbəri bildirdi ki, bir il öncə beynəlxalq təcrübəyə əsaslanaraq ATU-da tələbə- dekanların seçilməsinə start verilib: "İlk əvvəl bu proses çətin getsə də, ancaq biz bu prosesi başa çatdıra bildik. Nəhayət, biz tələbələrin içərisindən namizədlikləri irəli sürülənləri seçdik. Bu gün tələbələrimiz şurada ilk dəfədir iştirak edir. Ona görə də gündəlikdə duran məsələylə tam bələd deyillər. Amma gələcəkdə çalşın ki, edəcəyiniz hər hansı bir çıxış məruzəyə uyğun olsun. Bu təkcə tələbə dekanlara deyil, həm də Elmi Şuranın hər bir üzvünə aiddir."

Bundan başqa Rektor yanında İctimai Nəzarət Şurasının iş prinsipi haqqında danışan G.Gəraybəyli 9 nəfərdən ibarət olan bu şuranın səlahiyyətlərini şərh edərək onun universitetimizin fəaliyyətinə hərtərəfli kömək etmək və nizam-intizama nəzarəti diqqətdə saxlamaq məqsədilə yaradıldığını dedi. Dərs yükünün ağırlığından da söhbət açan rektor vurğuladı ki, gələcəkdə proqramlar dəyişdirilməli, qeyri-ciddi fənlər birləşdirilməli və əsas diqqət tibbi fənlərə yönəldilməlidir. Testlərin hazırlanması, yayılması və eləcə də tələbələr arasında satılmasını önə çəkən rektor bu işdə kafedra müdirlərini ehtiyatlı olmağa çağırdı və bunun çox təhlükəli bir vasitə olduğunu qeyd etdi.

Sonra şura üzvləri Qızıl Aypara Cəmiyyətinin xeyriyyəçilik proqramlarının universitetimizdə həyata keçirilməsi məqsədilə əməkdaşlardan ildə bir dəfə olmaqla 2 AZN üzvülük haqqı tutulmasını dəstəklədilər.

Böyük Elmi Şura universitetdə valideyin dəstəyindən məhrum olan uşaqların sosial müdafiəsini gücləndirmək məqsədilə büdcədən kənar vəsait hesabına təqaüd fondunun yaradılmasını təsdiqləməklə öz işini yekunlaşdırdı.

**Mənsur ƏLƏKBƏRLİ**

**Fotolar Cənnətalı Çingizindir**

# ATU-da Ulu Öndərin xatirəsi anılıb

**• Dekabrın 11-də Azərbaycan Tibb Universitetində Ulu Öndər Heydər Əliyevin anım gününə həsr olunmuş tədbir keçirildi. Toplantının əvvəlində Ümummilli Liderin xatirəsi bir dəqiqəlik sükutla yad edildi.**



Tədbirdə giriş sözü ilə çıxış edən ATU-nun tədris və müalicə işləri üzrə prorektoru, professor Sabir Əliyev bildirdi ki, dünya siyasi elitasında özünəməxsus nüfuz və söz sahibi olan dövlət başçılarından biri də Heydər Əliyev olub: "Respublikamıza rəhbərlik etdiyi bütün dövrlərdə Ulu Öndərimiz ilk növbədə Azərbaycanın iqtisadiyyatını, sənayesini, təhsilini, səhiyyəsini, mədəniyyətini olduqca yüksək dərəcədə inkişaf etdirib. Burdakıların əksəriyyəti bilir ki, 1975-ci ildən sonra təhsil sahəsində Azərbaycan gənclərinin SSRİ məkanında oxumağa göndərilməsi və müxtəlif sahələrdə ixtisaslaşmış kadr kimi ölkəmizə qayıtması olduqca böyük bir məsələ idi. Bunlar məhz ümummilli liderin sayəsində mümkün oldu".

S.Əliyev qeyd etdi ki, müstəqillik dövründə də hakimiyyətə gələn Heydər Əliyev ilk növbədə Azərbaycanın iqtisadi potensialının artması üçün bütün sahələrdə yeniliklər yaradıb.

Daha sonra prorektor, professor S.Əliyev, ümummilli liderin müstəqillik dövründə 2 dəfə ATU-ya gəldiyini, onun təhsilə və səhiyyə sahəsinə, xüsusilə Tibb Universitetinə böyük diqqət və qayğı ilə yanaşdığını bildirdi: "Ümummilli lider Heydər Əliyev dünya siyasət elitasında öz sözünü demiş böyük şəxsiyyətdir. Bunu yalnız azərbaycanlılar deyil, həm də bütün dünya bilir və danışır. Ulu Öndərin dünya siyasətində rolu əvəzsizdir. Bir azərbaycanlı olaraq bu, bizdə fərəh hissi yaradır".





Daha sonra ATU-nun ictimai fənlər kafedrasının müdiri, professor Qoşqar Əliyev çıxış edərək ulu öndərin Azərbaycan xalqı qarşısında çoxsaylı xidmətlərindən yalnız bir neçəcini xatırladtı: "Neft istehsalında, təhsil sahəsində gənc kadrların hazırlanması və gənc nəslin milli ruhda böyüməsi üçün digər addımların həyata keçirilməsi çox böyük uğurlardır. Bundan əlavə, ulu öndər çox ədalətli insan olub. Xatırladıram ki, xalq şairi Bəxtiyar Vahabzadə 60-cı illərdə qanunsuz olaraq saxlanılanda, məhz Heydər Əliyevin müdaxiləsindən sonra azad edilib. Vətənpərvər bir insan kimi Heydər Əliyev daim milli ruhu yaşadıb".

ATU-nun II uşaq xəstəlikləri kafedrasının müdiri, professor Amaliya Əyyubova öx çıxışında da ulu öndərin təhsil və səhiyyə sahəsinin inkişafı üçün gördüyü işlərdən söz açdı: "Azərbaycanda təhsil və səhiyyə sahəsində baş verən yeniliklər onun adı ilə bağlıdır. Hazırda burada oturan alimlər daim böyük konfranslarda, tədbirlərdə iştirak edirlər. Bizim alimlərə bu imkanın yaradılmasına məhz Heydər Əliyevin təhsil sahəsindəki inkişafın təməlini qoyması səbəb olub". Daha sonra A.Əyyubova tədbir iştirakçıları ilə ulu öndər Heydər Əliyevlə bağlı xatirələrini bölüşdü.

Yekunda ATU-nun II müalicə-profilaktika fakültəsinin VI kurs tələbəsi Xatun Məmmədova ümummilli lider Heydər Əliyev haqqında düşüncələrini səsləndirdi. Tədbirdə çıxış edənlər qeyd etdilər ki, ümummilli liderin rəhbərliyi dövründə ölkənin bütün sahələri yüksək səviyyədə inkişaf edib. Onun Azərbaycanın rifahı və gələcək inkişafı üçün gördüyü işlər əvəzsizdir.

# ONLAYN KURS REZİDENT VƏ GƏNC HƏKİMLƏRİN MARAĞINA SƏBƏB OLDU

**◆ Azərbaycan Tibb Universiteti ilə İstanbul Universiteti rəhbərliyi arasında əldə edilmiş razılığa əsasən vaxtaşırı rezident və gənc həkimlər üçün internet-onlayn kurslar təşkil olunur. Belə bir kurs Cərrahiyyə Klinikasında dekabrın 14-də baş tutub. İstanbul Universitetin nəzdində fəaliyyət göstərən Beynəlxalq Endoskopik Laparoskopik Cərrahlar Cəmiyyətinin rəhbərliyi və ATU-nun Ümumi Cərrahiyyə və I Cərrahiyyə Xəstəlikləri kafedralarının rəhbərliyinin vasitəçiliyi ilə baş tutan kurs iki gün davam edib. Çoxsaylı gənc Azərbaycan həkimləri internet-onlayn vasitəsi ilə Türkiyənin tanınmış tibb alimlərinin mühazirələrini dinləyib, onları maraqlandıran suallara ətraflı cavab alıblar.**

Ümumi Cərrahiyyə kafedrasının müdiri, professor Elçin Ağayev "Təbib" qəzetinə açıqlamasında bildirib ki, Beynəlxalq Endoskopik Laparoskopik Cərrahlar Cəmiyyəti həm Türkiyədə, həm də Avropada nüfuz qazanmış cəmiyyətlərdən hesab olunur. Həmin cəmiyyətin rəhbərləri mənə, professor Nuru Bayramova, dosent Müşfiq Həsənova yaxın və dost münasibətində olan insanlardır. Cəmiyyətə rəhbərlik edən Cavid Avçıdan rezidentlərimiz və gənc həkimlərimiz üçün belə bir kursun təşkil olunmasını xahiş etdik. Gördüyünüz kimi, həkimlərimiz bu kursda fəal iştirak edirlər və onlara sertifikatlar veriləcək. Gələn ilin yanvarında endoskopik-laparoskopik, yoğun və nazik bağırsaq əməliyyatları ilə bağlı bir kursun keçirilməsini də planlaşdırırıq. Düşünürük ki, elə həmin kurs da canlı bağlantı şəklində olsun."



I Cərrahi xəstəliklər kafedrasının müdiri, professor Nuru Byramov da onlayn kursların təşkilinin yaxşı bir ənənə olduğunu bildirib. Qeyd edib ki, artıq neçə illərdir universitetimiz ilə xarici universitetlər arasında bir neçə belə onlayn kurslar və konfranslar keçirilib: "Bu da onlardan növbəti biridir. Bunun təşkilinə universitetimizin Ümumi Cərrahlıq kafedrası öndərlik edir. Maddi baxımdan sərfəli olan onlayn kursların gələcəkdə də təşkilini nəzərdə tuturuq."

Qeyd edək ki, sual-cavab əsasında təşkil olunan bu kurs gənc həkimlər tərəfində maraqla qarşılandı və onlar maraqlandıqları suallara ətraflı cavab ala bildilər.

**Qabil ABDULLAYEV**

# Yeditepe Universitetinin Xəstəxanasının nümayəndə heyəti ATU-nun qonağı olub

**Dekabrın 5-də Türkiyənin Yeditepe Universitetinin Xəstəxanasından gələn nümayəndə heyəti Azərbaycan Tibb Universitetində (ATU) qonaq olub. Qonaqlarla görüşdə ATU-nun rektoru, professor Gəray Gəraybəyli universitetin fəaliyyəti, tədris sahəsində islahatlar və qurumun artan beynəlxalq əlaqələri haqqında məlumat verib.**



G.Gəraybəyli qeyd edib ki, ATU-nun Türkiyənin bir çox universitetləri ilə rəsmi əməkdaşlıq münasibətləri mövcuddur və bu əlaqələr daim genişləndirilir: "Türkiyə ali məktəblərinin bir çoxunun professorları, müəllimləri bizdə master-klass, təlim keçirlər. Bu yaxınlarda İstanbulda Türkiyə ilə Azərbaycan universitetlərinin rektorları arasında böyük görüş keçirilib. Bakı-Tbilisi-Qars kimi çox önəmli bir layihənin işə düşdüyü vaxtda, Bakıda keçirilən Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının iclasından sonra həm də ikinci tarixi hadisə baş verib.

Azərbaycan və Türkiyə hökumətləri arasında təhsil sahəsində əməkdaşlığa dair saziş imzalanıb. Qarşılıqlı əməkdaşlığın sıxlaşması üçün bir çox imkanlar yaradan bu sazişdə həmçinin ikili diplomların rəsmən qəbul olunması məsələsi də yer alıb ki, bu da təhsil sahəsində münasibətlərin daha da inkişafına təkan verəcək".

Rektor G.Gəraybəyli universitet daxilində fəaliyyət göstərən klinikalar haqqında da qonaqlara geniş məlumat verib. Bildirib ki, hazırda ATU-nun 4 müasir klinikası fəaliyyət göstərir: Tədris Stomatoloji, Onkoloji, Tədris Terapevtik və Tədris Cərrahiyyə klinikalarının hər biri zəngin maddi-texniki baza, müasir cihaz və avadanlıqla təchiz edilib. Özünü maliyyələşdirmə ilə fəaliyyət göstərən bu klinikalarda tələbə və rezidentlər həm nəzəri, həm də praktik bilgilərə yiyələnirlər.

ATU-nun beynəlxalq əlaqələr üzrə prorektoru, dosent Nadir Zeynalov ATU ilə Yeditepe Universitetinin tibb fakültəsi arasında əlaqələrdən danışıb: "Artıq bu münasibətlərimiz tədris-təlim istiqamətində inkişaf etdirilir. Hazırda ikitərəfli əməkdaşlıq protokolunun təfərrüatlarının hazırlanması üzərində iş aparılır".

Yeditepe Universitetinin Xəstəxanasının İdari direktoru Dr.Arzu Akkaş Bakıda olmaqdan məmnunluğunu ifadə edərək rəhbəlik etdiyi təşkilatın işi haqqında məlumat verib. Onun sözlərinə görə, Yeditepe Universiteti 1996-cı ildə yaradılıb: "Türkiyənin ikinci özəl universiteti olan Yeditepede tədris ingilis dilində aparılır. 2005-ci ildə ilk klinikamızı açdıq. Bu, 100 çarpayılıq bir klinikadır. Sonradan tələbə və rezidentlərin, uzmanların ehtiyacını nəzərə alaraq, daha bir klinikanı yaratdıq". Dr. Arzu Akkaşın sözlərinə görə, 3 həftə öncə açılan yeni klinika "Yeditepe İxstisas Xəstəxanası" adlanır. 200 çarpayılıq yeni klinika beyin cərrahiyyəsi, onkoloji və digər şöbələrdən ibarətdir.

Yeditepe Universitetinin Xəstəxanasının Beynəlxalq Xəstə Xidmətləri üzrə səlahiyyətli nümayəndəsi Mehriban Kayan da görülən işlər barədə məlumat verib.

Görüşdə iki universitet arasında hazırlanan əməkdaşlıq memorandumunun detalları müzakirə olunub, cənədə universitet klinikalarının qarşılıqlı xəstə mübadiləsinə dair məsələlərin əlavə olunmasına dair ilkin razılıq əldə olunub.

**ATU-nun mətbuat xidməti**

# İctimai Nəzarət və Məsləhət Şurası 4 saylı tədris binasında reyd keçirdi

**Azərbaycan Tibb Universitetinin rektoru yanında İctimai Nəzarət və Məsləhət Şurasının (İNMŞ) üzvləri 4 saylı tədris binasında reyd keçirib.**



Şuranın sədri, millət vəkili, həkim qastroentroloq İlham Məmmədov və üzvləri –Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumunun Prezidenti Rauf Zeyni, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində fəaliyyət göstərən "Asan" radionun direktoru Emin Musəvi, "Cəmiyyətin və Vətəndaş Münasibətlərinin İnkişafı" İctimai Birliyinin sədri, QHT-lərin Antikorrupsiya Şəbəkəsinin üzvü Əhməd Abbasbəyli, ATU-nun əczaçılığın texnologiyası və idarəçiliyi kafedrasının baş müəllimi, "Gənc vətəndaş" İctimai Birliyinin sədr müavini Aidə Bəndəliyeva reyddə iştirak edib.

Reyd öncəsi şura üzvü Aidə Bəndəliyeva bildirib ki, əsas məqsəd tələbələrlə görüşmək, onların fikirlərini, rəylərini, şikayətlərini və təkliflərini öyrənməkdir. Bütün tədris korpuslarında həm tələbələrin, həm də əməkdaşların şikayət və təkliflərini araşdırmaq üçün üzərində qaynar xətt nömrələri yazılan qutular quraşdırılıb: "Komissiyaya edilmiş şikayətlərə baxılır və araşdırılır. Hazırda keçirdiyimiz reydin də məqsədi şikayətləri yerində araşdırmaqdır. Bilmək istəyirik ki, tədris necə gedir, müəllimlər hansı formada iş aparır. Çünki bəzi müəllimlər hələ də saralmış kağızlardan istifadə edir, müasir texnologiyanın imkanlarından kifayət qədər yararlanmırlar".

Vətəndaş cəmiyyətini təmsil edən ictimai nəzarət şurasının üzvləri auditoriyalara daxil olaraq dərsin keyfiyyəti ilə maraqlanıblar. Təhsildə mövcud olan problemlərin aradan qaldırılmasını prioritet məsələ kimi diqqət mərkəzində saxlayan ictimai nəzarət şurasının üzvləri ilk növbədə kafedra rəhbərliyinin və müəllimlərin iştirakı olmadan tələbələrin rəylərini dinləməyə üstünlük veriblər. Onlar biofiziki və bioüzvi kimya, farmakologiya, tibbi fizika və informatika, bioloji kimya, operativ cərrahlıq və topoqrafik anatomiya kafedralarında əvvəlcədən nəzərdə tutulmayan mühazirə zallarına, seminar və praktiki məşğələ otaqlarına girərək tədris prosesini izləyiblər, tələbələrlə açıq diskussiya aparıblar. Tələbələr qarşılaşdıqları məsələlərlə bağlı fikirlərini bildiriblər.

Reyd zamanı tələbə bufetlərinə və yeməkxanalarına da baxış keçirilib, bu xidmət sahəsindən istifadə edənlərin fikirləri öyrənilib.

# Yeni kafedra müdirləri seçilib

• **Azərbaycan Tibb Universitetinin 5 kafedrasında müdir vəzifəsinə seçkilər keçirilib. Professor Vəfa Pənahian qulaq, burun və boğaz xəstəlikləri, dosent Ramiz Poluxov uşaq cərrahlığı, dosent Məlahət Sultanova şüa diaqnostikası və terapiyası, professor Səfixan Həsənov I uşaq xəstəlikləri, professor Fərid Mahmudov isə dermotevenorologiya kafedrasının müdiri seçiliblər.**



Yeni seçilən kafedra müdirlərini qəbul edən ATU-nun rektoru, professor Gəray Gəraybəli onlara mövcud problemləri həll etmək üçün tövsiyələrini verib və gələcək işlərində uğurlar diləyib.

Yeni kafedra müdirləri üzərlərinə düşən məsuliyyəti dərk etdiklərini bildirərək onlara göstərilən etimadı doğruldacaqlarını, müasir tələblərə cavab verən gənc mütəxəssislərin hazırlanması üçün əllərindən gələni edəcəklərini söyləyiblər.

# ATU əməkdaşlarının Qubada maarifləndirmə görüşləri

◆ **Azərbaycan Tibb Universitetinin İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrasının əməkdaşları kənd sakinləri arasında sağlam həyat tərzi ilə bağlı maarifləndirici iş aparmaq üçün Quba rayonunda olublar. Onlar əhali arasında tibbi maarifləndirmə işlərinin təşkili ilə bağlı rayonun bəzi kəndlərinin sakinləri ilə görüşüblər.**




Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin "Azərbaycan Respublikasında qeyri-infeksion xəstəliklərlə mübarizəyə dair 2015-2020-ci illər üçün strategiya"nın icrası ilə bağlı keçirilən tədbir zamanı ATU-nun kafedra nümayəndələri həm rayon mərkəzində, həm də Dağlı və II Nügədi kəndlərinin orta məktəblərində, tibb müəssisələrində və iri təsərrüfatlarda olublar.

Onlar müəllim və şagirdlərlə, kəndlərin tibb personalı, kənd sakinləri ilə görüşərək qeyri-infeksion xəstəliklərin risk amilləri (piylənmə, hipertoniya, artıq bədən çəkisi, hiperxolesterinemiya, aşağı fiziki aktivlik və s.) haqqında məlumat veriblər.

Maarifləndirmə xarakterli görüş zamanı iştirakçılara buklet və yaddaş kitabçaları təqdim olunub, onları maraqlandıran suallar cavablandırılıb.

Səfərdə Azərbaycan Tibb Universitetinin İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrasının doktorantı, t.ü.f.d, Quba Rayon Mərkəzi Xəstəxanasının həkimi Ə.Əliyev, assistentlər-t.ü.f.d. Y.Hacıyeva, A.Babayeva, A.Tağıyeva, A.Cəfərova, K.Həbibova, A.Bədəlova və doktorant İ.İslamzadə iştirak ediblər.

# Ortopedik stomatologiya kafedrasında tələbələr üçün aktual mövzuda seminar

◆ **Azərbaycan Tibb Universitetinin ortopedik stomatologiya kafedrasında müxtəlif aktual mövzularda elmi seminarların keçirilməsi artıq ənənə halını alıb. "Metalsız keramika altında dişlərin yonulması" mövzusundakı növbəti tədbir dekabrın 2-də baş tutub.**






ATU-nun ortepedik stomatologiya kafedrasının assistenti Rauf Şahmuradovun sözlərinə görə, seminarın mövzusu təsadüfi seçilməyib. Çünki stomatologiyaya dair Azərbaycan dilli ədəbiyyatda dişlərin müasir metodlarla yonulma qaydaları geniş açıqlanmır: "Bu mövzuda müəyyən qədər boşluq yaranıb. Azərbaycan dilində oxuyan tələbələrimiz təəssüf ki, lazımi məlumatı ala bilmirlər. Müasir dövrdə dişlərin qapaq altı üçün yonulma qaydaları dəyişib. Köhnə qaydalar artıq tarixdə qalmaqdadır. Çünki həm işlətdiyimiz materiallar, həm estetik tələblər dəyişir. Müasir stomatologiyadakı materiallar yeni yanaşma tələb edir. Yeni yanaşmanın bir növü metalsız keramik qapaqlar üçün dişlərin yonulması qaydalarıdır". Rauf Şahmuradov məhz bu mövzuda məruzə ilə iştirakçılara ətraflı məlumat verib.

Diplomdan sonrakı təhsilini Amerika və Avropada almış, uzun müddət Moskvada çalışan R.Şahmuradov qeyd edir ki, ATU-nun ortopedik stomatologiya kafedrasında dərslərin aparılması, treninqlərin keçirilməsi üçün hər cür şərait yaradılıb: "Kafedra müdirinin təşəbbüsü ilə dərs proqramı yenilənib ki, bu proqramın əsasını müasir metodların təbliği təşkil edir. Yəni, həm bacarıq, həm nəzəriyyə, həm də təcrübəyə önəm verilir. Yeni proqram sayəsində tələbələr seminarda bəhs etdiyimiz mövzunu dərsdə də keçə biləcəklər".

Ortopedik stomatologiya kafedrasının müdiri, professor Nazim Pənahov bu tip seminarların tələbə və rezidentlər üçün xüsusi əhəmiyyət daşıdığını bildirdi: "Bu seminar digər klinikalarda müəllimlər, həkimlər üçün ödənişli olaraq keçirilir. Biz isə tələbələrimiz üçün belə bir imkan yaratmışıq ki, müasir stomatologiyaya dair məlumatlarla tanış olsunlar. Hazırda stomatologiya çox inkişaf etməkdədir. Məhz ona görədir ki, seminara yerlər bir ay öncədən dolmuşdu. Seminarlarımız ayda 2 dəfə olmaqla şənbə günləri, kafedramızın nümayəndələri tərəfindən ən aktual mövzularla əlaqədar keçirilir".

Tədbirdə ATU-nun stomatologiya fakültəsinin dekanı, dosent Səid Əhmədov, yuxarı kurs tələbələri və rezidentlər iştirak ediblər. Bir saat davam edən seminarda təlimçilər tələbə və rezidentlərin bütün suallarını cavablandırıblar.

**ATU-nun mətbuat xidməti**

# II müalicə-profilaktika fakültəsinin TEC-nin aktiv tələbələri ilə görüş keçirilib

**Bu günlərdə ATU-nun II müalicə-profilaktika fakültəsinin dekanı ilə fakültə TEC-nin aktiv tələbələrinin görüşü keçirilib. Görüşdə fakültə dekanı İsrail Məhərrəmbəyli, tələbə dekanı Məhərrəm Alimli, II müalicə-profilaktika fakültəsi TEC-in sədri Aidə Qasımova, koordinator Aqqul Məmmədzadə, IV Beynəlxalq Tibb Konqresinin koordinatorları Ramil Hüseynzadə və Orxan İsgəndərov iştrak ediblər.**



Fakültənin dekanı, dosent İ.Məhərrəmbəyli tələbələrə IV Beynəlxalq Tibb Konqresindəki aktiv fəaliyyətlərinə görə öz təşəkkürünü bildirib. O, tələbələrin müxtəlif beynəlxalq tədbirlərdə yüksək nailiyyətlər əldə etməsini sevindirici hal kimi qiymətləndirdi. Dekan İ.Məhərrəmbəyli Dağıstan Dövlət Tibb Universitetində keçirilən Beynəlxalq Tibb Konqresində ATU-nu təmsil edən və uğurlu nəticə əldə etmiş tələbələrdən Kamilə Qaraisalı, Ülvi Ələşrəfov və Sərxan Həsənliyə bir daha təşəkkür edərək tələbələr arasında TEC-in təbliğinin vacib olduğunu vurğuladı: "Tələbə Elmi Cəmiyyətinə daha çox tələbələrin cəlb olunması önəmlidir. Bu işdə sizin üzərinizə böyük bir iş düşür. TEC-in fəaliyyətinin aşağı kurslarda daha çox təbliğ olunması vacib şərtlərdən biridir. İnanıram ki, TEC-in gördüyü işlər tələblərin daha aktiv olmasına şərait yaradacaq".

"Bu günün aktiv tələbəsi-sabahın qurucusudur" şüarının səsləndirildiyi tədbirdə Tələbə Elmi Cəmiyyətinin nümayəndələri gənclərə xitab edərək onları daha fəal olmağa çağırdılar. Rezident Ramil Hüseynzadə xüsusi nailiyyətləri olan, müsabiqələrdə yer tutan tələbələrə müxtəlif qiymətli hədiyyələrin verilməsini, gənclərin xarici ölkələrdə keçirilən konfranslara göndərilməsini təklif etdi. Tələbə-dekan Məhərrəm Alimli konfranslarda münsiflər heyətinin xüsusi komissiya tərəfindən seçilməsi və onların zəhmətlərinin qiymətləndirilməsinin vacib olduğunu vurğulayıb. Tələbə Emil Tahirli sertifikatların xarici ölkələrdə daha rahat tanınması üçün sənədin üzərində ştrix-kodların olmasının çox önəmli olduğunu vurğulayıb və bunun tətbiqinin sertifikatların beynəlxalq əhəmiyyətini artıracağını söyləyib. Tələbə Sevinc Vəliyeva TEC konfransında çıxış edəcək tələbələrin ilkin olaraq yoxlanılması üçün hər kafedranın özündə komissiyaların yaradılmasının zəruri olduğunu bildirib.

Bütün təkliflər dinlədildikdən sonra fakültə dekanı İsrail Məhərrəmbəyli təkliflərin dəyərləndiriləcəyini qeyd edərək tələbələrə gələcək fəaliyyətlərində uğurlar arzulayıb. İclasda həmçinin fakültə TEC-in qarşıdakı dövr üçün planları, hədəfləri, növbəti konqreslə bağlı fikir mübadiləsi aparılıb.

# İctimai səhiyyə fakültəsinin rəhbərliyi qrup nümayəndələri ilə görüşüb

**Azərbaycan Tibb Universitetinin rəhbərliyi təhsil sisteminin təkmilləşdirilməsi, şəffaflığın təmin olunması üçün daim tələbələrin rəyini dinləməyə hazırdır. Bu ildən etibarən rektor Gəray Gəraybəylinin təşəbbüsü ilə universitet rəhbərliyi və şəxsən rektorun özünün mütəmadi olaraq tələbələrin qrup nümayəndələri ilə görüşləri keçirilir. Bu ənənə fakültələrdə də davam edir.**



Noyabrın 29-da ATU-nun İctimai səhiyyə fakültəsinin I, II və III kurslarında təhsil alan qrup nümayəndələri ilə görüş keçirilib. Görüşdə fakültənin dekanı, tibb üzrə elmlər doktoru, dosent Anar Ağayev, dekan müavini dosent Qalina Qəniyeva və tədris məsləhətçisi, müəllimə Zümrüd Abaszadə iştirak ediblər.

Görüş zamanı Z.Abaszadə I, II və III kurslarda təhsil alan tələbələrin 2017-2018-ci tədris ilinin payız semestri ərzində fəaliyyətini əks etdirən hesabatla çıxış edib. Bu zaman tələbələrin davamiyyəti ilə bağlı ayrıca məlumat verilib. Davamiyyəti zəif olan tələbələrlə fakültə dekanı və dekan müavininin keçirdiyi görüşlər, payız semestri ərzində kredit borcu olan və təkrar dinləmələrə cəlb edilən tələbələr, qrup nümayəndələrinin fəaliyyətində olan nöqsanlar barəsində də məlumat səsləndirilib.

Qarşıdan gələn qış sessiyası müddətində hər kurs üzrə imtahan günləri və müvafiq fənlər barədə ətraflı informasiya açıqlanıb. Z.Abaszadə sonda tələbələri fakültənin tələbə dekanı, II kurs, $641^{b}$ qrup tələbəsi Ağazadə Xədicə İzzət qızı, fakültə tələbə həmkarlar təşkilatının nümayəndəsi, II kurs, $642^{b}$ qrup tələbəsi Qocayeva Ella Azər qızı və fakültə gənclər və idman təşkilatının nümayəndəsi, III kurs, $626^{a}$ qrup tələbəsi Quliyeva Xətayə Əliqismət qızı ilə tanış etdi.



Daha sonra fakültənin dekanı Anar Ağayev çıxış edərək tələbələri dərsə davamiyyətdə məsuliyyətli olmağa çağırdı. A.Ağayev universitetdə təhsil müddətində tələbələri onlar üçün yaradılan şəraitdən səmərəli istifadə etməyə, maksimum dərəcədə bilik əldə etməyə, dostluq münasibətləri qurmağa, bilik mübadiləsi aparmağa səslədi.

Sonra A.Ağayev tədris zamanı tələbələrin üzləşdiyi müxtəlif problemlərlə bağlı onların bəzi suallarını cavablandırdı. Dekan maraqlı təkliflərlə çıxış edən tələbələri diqqətlə dinlədikdən sonra bir sıra digər məqamlara aydınlıq gətirdi.

2 saatdan artıq davam edən görüşün sonunda fakültə dekanı Anar Ağayev tələbələrlə keçirilən bu günün çox maraqlı, eyni zamanda məhsuldar olduğunu qeyd etdi və gələcəkdə bu görüşün öz töhfələrini verəcəyindən əmin olduğunu bildirdi.

# Tədris Cərrahiyyə Klinikasında daha bir riskli cərrahi əməliyyat icra edilib

**• ATU-nun Tədris Cərrahiyyə Klinikasının həkimləri növbəti riskli və uğurlu əməliyyata imza atıblar.**

Bu haqda klinikanın ortopediya və travmatologiya şöbəsinin müdiri, assistent, t.ü.f.d. Cəfər Nəsirli məlumat verib. Onun sözlərinə görə, 50 yaşlı A tip hemofiliyalı kişi xəstə sağ diz oynağının artrozu diaqnozu ilə klinikaya müraciət edib: "Məlum olub ki, bundan əvvəl həmin pasiyent Almaniyada əməliyyat olunub. Lakin əməliyyat uğursuz alınıb. Xəstənin diz oynağı "sementlənərək dondurulub". Belə ki, bundan sonra xəstənin ayağı normal hərəkət etməyib. Bu nəticəni





gördükdən sonra xəstə bizim klinikaya müraciət edib. Biz xəstənin sağ diz oynağının reviziyon endoprotezləşdirilməsi cərrahi əməliyyatını icra etdik. Pasiyent hemofiliya xəstəsi olduğundan belə bir əməliyyatın aparılması daha çox riskli idi. Çünki əməliyyat zamanı qanaxma da ola bilərdi. Lakin həkimlərimiz bu ağır əməliyyatın öhdəsindən müvəffəqiyyətlə gəldilər".

Qeyd edək ki, bundan əvvəl C.Nəsirli həmin xəstənin sol dizinə süni oynaq köçürülməsini icra edib. Bu dəfə 4 saat davam edən daha geniş əməliyyat xəstənin sağ dizində uğurla həyata keçirilib.

Xəstə artıq əməliyyatdan bir həftə sonra ayağa durub gəzə bilir.

# Tələbələr üçün "Brain Mania" klubu yaradıldı

**Azərbaycan Tibb Universitetinin Tələbə Həmkarlar İttifaqı Komitəsinin nəzdində "Brain Mania" müzakirə klubu yaradılıb. Klubun rəhbəri II müalicə-profilaktika fakültəsinin IV kurs tələbəsi Oqtay Hüseynov, müavini isə II müalicə-profilaktika fakültəsinin IV kurs tələbəsi Natiq Quliyev seçilib.**



O.Hüseynovun sözlərinə görə, bu müzakirə klubu haqqında təşəbbüs universitet rəhbərliyi tərəfindən dəstəklənib. Klub Rus və Azərbaycan sektorlarında oxuyan tələbələri öz ətrafında birləşdirir: "Bu klub sayəsində tələbələr fərqli və ciddi mövzular ətrafında qarşılıqlı fikir mübadiləsi aparacaqlar. Artıq klubumuzda ilk görüş baş tutub. Rus sektorunun 20-dən çox tələbəsinin iştirak etdiyi görüşə müəllimlərimiz də qatılmışdı. Molekulyar biologiya mövzusuna dair ilk müzakirəmizin nəticələri hamı tərəfindən bəyənildi".

Qeyd edək ki, həftənin V günləri saat 16:00-da Rus sektorunda təhsil alan tələbələr, VI günləri isə saat 14:00-da isə Azərbaycan sektorunda oxuyan tələbələr arasında diskussiyalar keçirilir.

**ATU-nun mətbuat xidməti**

# Tədris Cərrahiyyə Klinikanın professoru Beynəlxalq konqresdə iştirak edib

**Tədris Cərrahiyyə Klinikanın professoru Məhəmməd Kərimov Amerika Ürək Cəmiyyətinin (American Heart Association) Los Angeles(Anaheim) şəhərində keçirilən növbəti konqresdə iştirak edib. Hər il keçirilən və dünyada çox böyük reytinqə malik olan forum, istər miqyasına, istər iştirakçılarının sayına, istərsə də xüsusi çəkisinə görə digərlərindən əhəmiyyətli dərəcədə fərqlənir.**

On səkkiz min nümayəndənin qatıldığı dünya miqyaslı konqresin işini 1 milyon mütəxəssis də onlayn rejimdə daimi izləyə bilir. Konqres müxtəlif ürək-damar xəstəliklərinin epidemiologiyası, etiopatogenezi, müasir diaqnostika və müalicə üsullarına həsr edilib.

Professor M.Kərimov konqresin əsasını Amerikada damar cərrahiyyəsində olan vəziyyəti haqqında danışıqların olduğunu qeyd etdi: "Konqresin 2-ci günü damar xəstəliklərinə, onların nəzəri aspektləri, müasir diaqnostika və müalicə məsələlərinə həsr edilmişdi. Bir-birindən maraqlı, çox böyük tədqiqat materiallarına əsaslanmış çıxışlar, hətta ilk baxışda kiçicik görünən fəsadların da yer aldığı məruzə və mühazirələr, həkim səhvlərinin səmimi analizi, bütövlükdə isə verilən məlumatların obyektivliyi, düzgünlüyü xüsusilə diqqəti cəlb edirdi. Konqresdən aldığımız informasiyalar bolluğunda əsas məsələlərdən biri və bəlkə də ən vacibi aşağı ətraf arteriyalarının xəstəliklərinə verilən xüsusi diqqət və maraq oldu. Çıxışların çoxunun periferik arteriya xəstəliklərinə, onların müasir müalicə üsullarına həsr edilməsi, hətta konqresin bir gününün ayrıca bu məsələyə həsr edilməsi bu problemin tək bizim üçün yox, Amerika üçün də çox aktual olduğunu sübut edirdi. Bizə də gündəlik müraciət edən




pasiyentlər arasında onların sayı çoxluq təşkil edir".

Professor həmçinin aşağı ətraf arteriyalarının obliterasiyaedici xəstəlikləri, xüsusilə də aterosklerozun müalicəsində demək olar ki, inqilabi dəyişikliklərin baş verdiyini, açıq cərrahi əməliyyatların sayının minimuma düşdüyünü, əsas üstünlük endovazal, azinvaziv müalicə üsullarına verildiyindən bəhs etdi: "Bir çox səbəblər, o cümlədən də endovazal müalicə üsullarının geniş tətbiqi sayəsində ətrafların amputasiyası kimi əlilliyə səbəb olan böyük problemin həllində ciddi uğurlar qazanılmış, erkən icra edilən az invaziv prosedurlar sayəsində bir çox insanların ətraflarını xilas etmək mümkün olmuşdur. Çıxışlarda gətirilən faktlar, statistik məlumatlar və onların dinamikası bunu sübut edirdi. Bu doğrudan da Amerika səhiyyəsinin çox böyük uğurlarından sayıla bilər". Professor M.Kərimov sonda bu problemlərin ölkəmiz üçün də çox önəmli olduğunu qeyd etdi.

## ATU-nun Tədris Terapevtik Klinikasının Dializ Mərkəzi ABŞ-ın tanınmış jurnalında qeydiyyata alınıb




**Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikasının "Dializ mərkəzi" Amerikanın "Dialysis and Transplantation" jurnalının "Dializ mərkəz"lərinin siyahısında qeydiyyata alınıb.**

Bu haqda klinikanın mətbuat xidmətinə Səhiyyə Nazirliyinin baş nefroloqu, Efferent Terapiya Mərkəzinin rəhbəri, professor Mehman Ağayev məlumat verib.

Professor bildirib ki, son zamanlar Azərbaycanda turizmin inkişafını və ölkəmizə turistlərin axınını nəzərə alaraq, universitet rəhbərliyi və klinikanın direktoru Hüseyn Qabulovun da təşəbbüsü ilə belə bir addım atılıb.

"Bu jurnal Amerikada nəşr olunur və turist axınının daha çox olduğu ölkələr burada qeydiyyatdan keçiblər. Biz də turizmin artıq bütün dünyada ən gəlirli sahələrdən biri olduğunu, geniş və sürətlə inkişaf edən iqtisadi sektora çevrildiyini nəzərə alaraq bu jurnalda qeydiyyatdan keçməyə qərar verdik. İnanıram ki, biz Azərbaycana gələn turistlərə ən yüksək səviyyədə xidmət göstərən "Dializ mərkəzi" olacağıq və gələcəkdə daha böyük işlərə imza atacağıq".

## Tədris Terapevtik Klinikanın nevroloqu V Kliniki Neyrofizioligiya və Neyroreabilitasiya konfransına qatılıb

**Klinikamızın nevroloqu, tibb elmləri doktoru, professor Sədaqət Hüseynova Rusiyanın Sankt-Peterburq şəhərində keçirilən V Kliniki Neyrofiziologiya və Neyroreabilitasiya konfransına qatılıb.**

S.Hüseynova bildirib ki, konfransın əsas məqsədi bu sahədə çalışan mütəxəssisləri, elmi işçiləri, nevrologiya, neyrofiziologiya və neyroreabilitasiya sahəsində olan yeni istiqamətlər, diaqnostika və müalicə sahəsində olan mühüm nailiyyətlərlə tanış etmək olub. Konfransda giriş sözü ilə professor N.Skripçenkonun çıxış etdiyini deyən professor S.Hüseynova, onun əsasən konfransın mühüm əhəmiyyətindən, ümumrusiya çərçivəsindən çıxaraq beynəlxalq xarakter almasından, müxtəlif nevroloji və neyrofizioloji məktəbləri özündə birləşdirməsindən danışdığını bildirib: "Konfransın birinci günü nevroloji praktikada çox sıx rast gəlinən müxtəlif polineyropatiyaların diaqnostikasına, müalicə və reabilitasiyasına həsr olunmuş geniş məruzələr olub. Elektroneyromioqrafiya seksiyasında müasir dövrdə rutin praktikada geniş istifadə edilən testlərə (F-dalğa, H-refleks, blink-refleks, inçing metodikası) həsr olunmuş master klasslarda keçirildi".

"Həmçinin periferik sinir sisteminin ultrasəs diaqnostikası, elektroneyromioqrafiyanın kolopraktikada tətbiqi, son 20 ilin nailiyyəti olan botulino-terapiyanın istifadəsinə göstərişlər, hazırda bu terapiyanın yalnız lokal distoniyalar və spastiklikdə deyil, həm də revmatoloji, artroloji və ortopedik xəstəliklərin




müalicəsində də geniş istifadə edildiyindən də söz açıldı".

Konfransın son günü professor Volfang Qrizoldun (Vena, Avstriya) paraneoplastik sinir-əzələ sindromuna həsr olunmuş məruzəsinin böyük maraq doğurduğunu qeyd edən professor, onun onkoloji xəstəliklər və radioterapiya zamanı əmələ gələn müxtəlif sinir və əzələ sindromları haqqında verdiyi ən müasir məlumatların böyük maraqla qarşılandığını bildirib. S.Hüseynova onu da qeyd edib ki, konfransda Elektroneyromioqrafiya, Elektroensefaloqrafiya, Ötürücü sistemlərin neyrofiziologiya və neyroreabilitasiyası (transkranial maqnit stimulyasiyası və oyandırılmış potensialalr), Neyroreabilitasiya, Botulinoterapiyanın uğurları, Periferik sinirlərin ultrasəs müayinəsi, Neyroortopediya, Yaş neyrofiziologiyası, Neyrooftalmologiya, Neyrocərrahiyyədə interoperasion neyrofizioloji monitorinq, Öyrədici master-klasslar (elektroneyromioqrafiya, oyandırılmış potensiallar, botulinoterapiya, transkranial maqnit stimulyasiyası) mövzularında geniş müzakirələr aparılıb.

## Əməkdaşımız Kanadada toplantıda ölkəmizi təmsil edib

**Bu yaxınlarda Kanadanın Viktoriya şəhərində (British Columbia ştatı) Amerika Tiroidologiya Assosasiyasının növbəti toplantısı keçirilib. Azərbaycan Tibb Universitetinin Şüa diaqnostikası və şüa terapiyası kafedrasının əməkdaşı Lalə Ağabəyli bu il keçirilən toplantıda ölkəmizi təmsil edib. ATU-nun nümayəndəsi bu mötəbər toplantıda poster məruzəsi ilə çıxış edib.**




Lalə Ağabəyli hələ 2013-cü ildən "Qalxanabənzər vəzin ocaqlı törəmələrinin kompleks şüa diaqnostikası" mövzusunda elmi iş üzərində çalışır. Bu iş çərçivəsində əldə etdiyi nəticələrlə bağlı yerli və xarici elmi tibbi jurnallarda (Belarusiya, Qazaxıstan) məqalələri çap olunub. Tiroidologiya sahəsində müayinə və müalicə standartlarının təyinində ən nüfuzlu təşkilat olan Amerika Tiroidologiya Assosasiyası tərəfindən əməkdaşımızın apardığı tədqiqat çərçəivəsində elastoqrafiya və Doppler sonoqrafiya müayinəsinin nəticələri ilə bağlı tezisi qəbul edilib. Və nəticədə L.Ağabəyli illik 87-ci konfransında poster məruzəçisi kimi çıxış etməyə dəvət alıb.

Lalə Ağabəyli konfrans çərçivəsində poster sessiyasında "Qalxanabənzər vəzin bədxassəli törəmələrinin aşkar edilməsində ultrasəs elastoqrafiyası və rəngli doppler müayinələrinin rolu" mövzusunda ("Diagnostic value of ultrasound elastography and color doppler in the detection of malignant tumors of the thyroid gland") adlı məruzə ilə çıxış edib.

ATU-nun nümayəndəsi konqres çərçivəsində müxtəlif plenar mühazirələrdə, simpoziumlarda, diskussion debatlarda və müxtəlif professorlarla görüşlərdə iştirak edib. Həmçinin pediatrik tiroidologiya, boyun ultrasonoqrafiyası, tiroidologiyada qadınlar çərçivəsində müxtəlif seminarlara qatılıb. Sonda Lalə Ağabəyliyə sertifikatlar təqdim olunub. Sertifikatlardan ümumi 31 CME kredit (Continuing Medical Education –Davam edən Tibbi Təhsil) toplayıb. L.Ağabəyli bu mötəbər toplantıda ATU-nu təmsil etməsi üçün yaradılan imkan və şəraitə görə universitet və kafedra rəhbərliyinə təşəkkürünü bildirir.

Qeyd edək ki, 1927-ci ildən fəaliyyət göstərən Amerika Tiroidologiya Assosiasiyası tiroidologiya sahəsində standartların müəyyən edilməsində böyük nüfuz sahibidir. Mütəmadi olaraq hər il keçirilən konfranslarda bütün dünyadan olan tədqiqatçılar iştirak edir. Bu toplantılarda qalxanabənzər vəzin müxtəlif xəstəliklərinin müayinə və müalicə protokolları konsensus yolu ilə qəbul olunur və bütün tiroidoloqlar üçün bu protokollar rəhbər kimi qəbul olunur. Bu toplantılarda iştirak etmək tiroidologiya sahəsində hərtərəfli yeni məlumatlar əldə etməyə və dünyadan aparılan tədqiqatların nəticələrini tiroidoloqlarla bölüşməyə imkan yaradır.

**ATU-nun mətbuat xidməti**

# Kafedralarda açıq dərslər keçilir

**• Universitet rəhbərliyinin tövsiyəsi, dekanlıqların təşkilatçılığı ilə ənənəvi olaraq kafedralarda açıq dərslər keçilir. Açıq dərslərin təşkilində əsas məqsəd tələbələrin nəzəri biliklərini və praktiki vərdişlərini yüksəltməklə yanaşı, həm də müasir təlim metodlarının tətbiqi ilə seçilən nümunəvi dərslərin aşkara çıxarılması, təcrübə mübadiləsinin aparılmasıdır.**



Dekabrın 11-də II mamalıq-ginekologiya kafedrasında təşkil olunan belə açıq dərslərdən birinin iştirakçısı olduq. Kafedranın dosenti İradə Tağıyeva II müalicə-profilaktika fakültəsinin V kurs, 270[a] qrup tələbələri ilə ginekologiya fənnindən apardığı açıq dərsə keçilmiş mövzunun qısa sorğusu ilə başladı. Tələbələr "Uşaqlığın mioması" haqqında məlumat verərək bu xəstəliyin uşaqlığın hormonlardan asılı olan xoşxassəli şişi olub, qadın cinsiyyət üzvlərinin ən çox yayılmış şiş xəstəliklərindən biri olduğunu dedilər: "Mioma xərçəng şişi olmadığı üçün onu xoşxassəli şiş adlandırırlar. Ancaq bəzi hallarda mioma bədxassəli şişə də keçə bilər".



Miomanın əmələ gəlməsinin əsas səbəbinin qadın orqanizmində qanın tərkibində estrogenlərin (qadın cinsi hormonları) yüksək səviyyədə olması bildirildi.

Tələbələr öz biliklərini həm nəzəri, həm də praktiki cəhətdən əsaslandıraraq mövzunu ətraflı şəkildə təhlil etdilər.

Sonra dosent İ.Tağıyeva qadınlar arasında kifayət qədər yayılmış xəstəlik olan "Endometrioz" barədə ətraflı izahat verərək tələbələrin diqqətini yeni dərsə yönəltdi. Qeyd olundu ki, bu xəstəlik zamanı uşaqlıq boşluğunun selikli qişası hər hansı bir səbəbdənsə boşluq daxilindən kənara olmaqla inkişaf etməyə başlayır.

O da vurğulandı ki, Endometrioz da xoşxassəli xəstəlikdir (yəni xərçəng deyil), ancaq onun digər orqanlara və toxumalara yayılması onu bədxassəli şişlər ilə oxşar edir.

Tələbələrin fəallıq göstərdiyi müzakirələr zamanı qeyd olundu ki, Endometriozun özünü büruzə verməsi üçün ən xarakter əlamət ağrılardır.

Müzakirələr zamanı xəstəliyin ağırlıq dərəcəsindən, əlamətlərin nə dərəcədə ifadə olunmasından, xəstənin yaşından, gələcəkdə ana olmaq istəyinin olub-olmamasından və s. səbəblərdən asılı olaraq həkim tərəfindən müalicə üsulunun müəyyən edilməsinə də toxunuldu.

Sonda tələbələrin dərsdəki aktivliyinə görə qiymətləndirmə aparıldı.

Slaydlar və digər əyani vasitələrlə müşayiət olunan açıq dərsdə kafedranın müdiri, professor Hicran xanım Bağırova və kafedranın müəllimləri iştirak edirdilər.

**A.KAMRANOĞLU**

*Y u b i l e y*

**Müəllim adı həmişə şərəfli olub və yüksək qiymətləndirilib. Bu barədə şair də gözəl yazmışdır:**

*Zəkalara işıq saçır şöləsi,*
*İnsanlığa insanlıqdı töhfəsi.*
*Geniş dünyasıdır yazı lövhəsi,*
*Ömrümüzün mənasıdır müəllim!*



Belə müəllimlərdən biri də bu günlərdə 70 yaşı tamam olacaq Şahmar Əjdər oğlu Məmmədovdur. O, 1947-ci il dekabrın 3-də Qərbi Azərbaycanın Göycə mahalının Böyük Məzrə

# Şərəfli ömrün səhifələri

kəndində ziyalı ailəsində anadan olmuşdur. 1966-cı ildə Böyük Məzrə kənd 11 illik məktəbi bitirdikdən sonra 1966-1969-cu illərdə Moskva şəhərində hərbi xidmətdə olmuşdur.

1970-ci ildə Azərbaycan Dövlət Universitetinin biologiya fakültəsinin axşam şöbəsinə (insan və heyvan fiziologiyası ixtisası üzrə) qəbul olunmuşdur. 1976-cı ildə universiteti bitirmişdir.

1972-1974-cü illərdə Respublika sanitar epidemioloji stansiyası kommunal laboratoriyasında laborant işləmişdir.

1974-cü ilin may ayından Azərbaycan Tibb İnstitutunun Mərkəzi elmi-tədqiqat laboratoriyasında laborant vəzifəsinə təyin olunmuş, 1978-ci ildə müsabiqə yolu ilə kiçik elmi işçi vəzifəsinə seçilmişdir.

Əmək fəaliyyəti dövründə qəbul imtahanı zamanı sanitar gigiyena fakültəsinin qəbul komissiyasının sədr müavini olmuşdur.

Ş.Məmmədov 37 elmi məqalənin və 3 dərs vəsaitinin müəllifidir. Hal-hazırda normal fiziologiya kafedrasında Yeni Azərbaycan Partiyasına rəhbərlik edir.

Onun 1993-cü ildə yazdığı biologiyadan testlər toplusu kitabından çox sayda abituriyentlər bəhrələnmişdir. Şahmar müəllim kafedra üçün 170 test sualı hazırlamışdır.

1993-cü ildə müsabiqə yolu ilə normal fiziologiya kafedrasına assistent, 2007-ci ildən isə baş müəllim vəzifəsinə seçilmişdir. O, kafedra əməkdaşları və tələbələr arasında böyük nüfuza malikdir. Çox yaxşı eksperimentatordur. O, öz iş təcrübələrini gənc müəllimlərə və laborantlara öyrədir.

Şahmar müəllimi yubileyi münasibətilə kafedramızın əməkdaşları adından təbrik edir, ona uzun ömür can sağlığı və yeni-yeni yaradıcılıq uğurları arzulayıram.

**Azər Vələdov,**
*Normal fiziologiya kafedrasının tədris hissə müdiri, dosent*

# Tədris Terapevtik Klinikanın pediatrı XXIV Türkiyə Milli Allerqologiya və Klinik İmmunologiya Konqresində iştirak edib

**Türkiyənin Antalya şəhərində XXIV Türkiyə Milli Allerqologiya və Klinik İmmunologiya Konqresi keçirilib.**




Konqresə Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikasının II uşaq xəstəlikləri kafedrasının dosenti, pediatr Məleykə Kərimova da qatılıb.

M.Kərimova konqresdə uşaqların tez-tez xəstələnməsinin səbəbləri, I və II immundefisit vəziyyətlər, onların differensiyası ilə bağlı çıxış edib.

Pediatr bildirib ki, allerqologiya və klinik immunologiyanın aktual mövzularını özündə əks etdirən konqresdə bir çox aktual mövzulara toxunulub.

"Əsasən tez-tez xəstələnən uşaqlar, bronxial astma, allergik rinit, atopik dermatit, angionevrotik ödemlər, birincili və ikincili immundefisit vəziyyətlər və s. xəstəliklərin yaranması, diaqnostikası, müalicə və profilaktikasına dair ən son məlumatlar verildi. Tibbdəki ən son yeniliklərdən söhbət açıldı, eləcə də xəstə uşaqlara psixososial dəstəyin, sosial müdafiənin zəruriliyi barəsində geniş müzakirələr aparıldı".

"Uşaqlıq çağı bronxial astması" ( professor Bülent Şekerel), "Uşaqlarda ağır astma" (professor Haluk Çokuğraş, professor İpek Türktaş), "Polisensibilizasiya zamanı immunoterapiya" (Moises Colderon), "Yeni allergenspesifik immunoterapiya peyvəndləri " (Gabrielela Senti), eləcə də İsveçrədən olan Mübeccel Akdış və Cezmi Akdışin immunopatologiyaya dair çıxışları daha böyük maraqla qarşılanıb.

Qeyd edək ki, 18-22 noyabr tarixlərində keçirilən konqresdə Türkiyənin müxtəlif bölgələrini təmsil edən çoxsaylı allerqoloq, immunoloq, pulmonoloq, lor həkimləri, pediatr, terapevt, ailə həkimləri ilə yanaşı İsveçrə, Danimarka və s. ölkələrin də nümayəndələri iştirak edib. Eləcə də gənc həkimlər və tibb bacıları üçün də kurslar təşkil edilib.

# Tədris Terapevtik Klinikasında Ulu öndər Heydər Əliyevin anım gününə həsr olunmuş qanvermə aksiyası keçirilib

**Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikasında ulu öndər Heydər Əliyevin anım gününə həsr olunmuş qanvermə aksiyası keçirilib.**

Aksiyada "Müasir Azərbaycan Gəncləri" İctimai Birliyinin sədri Orxan Fəxrəddinov və birliyin 50-yə yaxın üzvü iştirak edib.

O.Fəxrəddinov bildirib ki, bu aksiya yeni yaranan ictimai birliyin ilk işi olsa da, qarşıda gəncləri daha böyük layihələr, tədbirlər gözləyir.

"Ulu öndər Heydər Əliyevin Azərbaycan gəncliyinə dəstəyi danılmazdır. Gənclər siyasəti Ulu öndərin layiqli davamçısı cənab prezident İlham Əliyev tərəfindən də uğurla davam etdirilir. Gənclər də təbii ki, bu dəstəyi hiss edib məsuliyyətlərini dərk edirlər. Bu aksiyada əsas məqsədimiz talassemiya, leykemiya, QİÇS və s. qan xəstəliklərindən əziyyət çəkən vətəndaşlara donor olaraq dəstək olmaqdır".





O.Fəxrəddinov ictimai birliyin gələcək planlarından da söz açıb: "Birliyin əsas hədəfi Azərbaycançılıq ideologiyasının təbliği, sərhədlərimizin hüdudları çərçivəsində, eləcə də ölkəmizin hüdudlarından kənarda yaşayan gənclərimizin intellektual və fərdi inkişafını təmin etmək, xarici ölkələrdə yaşayan azərbaycanlı gənclər ilə daha sıx əməkdaşlığı təmin etmək, Azərbaycan mədəniyyətinin dünyaya tanıdılmasında, Qarabağ həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında gənclərin düzgün istiqamətlənməsini təmin etməkdir".

Qeyd edək ki, birlik üzvləri qanvermə aksiyasından öncə I Fəxri Xiyabanda ümummilli lider Heydər Əliyevin və görkəmli oftamoloq-alim, akademik Zərifə Əliyevanın məzarını ziyarət ediblər.

AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ

AZƏRBAYCAN TİBB UNİVERSİTETİ

## KAFEDRALAR ÜZRƏ AŞAĞIDAKI YERLƏRİ TUTMAQ ÜÇÜN MÜSABİQƏ ELAN EDİR:

### Kafedraların professorları:

- I daxili xəstəliklər və reanimatologiya kafedrası - 1 yer
- Qulaq, burun, boğaz xəstəlikləri kafedrası - 1 yer (0,5 vahid)
- Məhkəmə təbabəti kafedrası - 1 yer (0,5 vahid)

### Kafedraların dosentləri:

- Dermatovenerologiya kafedrası - 1 yer (0,5 vahid)
- Patoloji fiziologiya kafedrası - 1 yer
- II uşaq xəstəlikləri kafedrası - 1 yer (0,5 vahid)
- III daxili xəstəliklər kafedrası - 1 yer (0,5 vahid)
- Biofiziki və bioüzvi kimya kafedrası - 1 yer (0,5 vahid)
- İctimai fənlər kafedrası - 1 yer
- Azərbaycan dili kafedrası - 1 yer
- Azərbaycan dili kafedrası - 1 yer (0,5 vahid)

### Kafedraların assistentləri:

- Uşaq cərrahlığı kafedrası - 1 yer (0,5 vahid)
- Oftalmologiya kafedrası - 1 yer (0,5 vahid)
- Epidemiologiya kafedrası - 1 yer (0,5 vahid)
- II mamalıq və ginekologiya kafedrası - 1 yer
- II uşaq xəstəlikləri kafedrası - 1 yer (0,5 vahid)
- II uşaq xəstəlikləri kafedrası - 1 yer (0,25 vahid)
- Ortopedik stomatologiya kafedrası - 3 yer (0,5 vahid)
- Terapevtik stomatologiya kafedrası - 2 yer (0,5 vahid)
- Ailə təbabəti kafedrası - 1 yer

### Kafedranın baş müəllimi:

- Patoloji anatomiya kafedrası - 1yer

### Kafedraların müəllimləri:

- Azərbaycan dili kafedrası - 1 yer
- Xarici dillər kafedrası - 1 yer

### Elmi Tədqiqat Mərkəzi

- Aktiv bioloji maddələrin sintezi şöbəsi (baş elmi işçi) - 1 yer (0,5 vahid)

**Müsabiqədə iştirak etmək üçün sənədlərin təqdim olunma müddəti elan qəzetdə dərc olunduğu gündən 30 gün keçənədəkdir. Sənədlər rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim edilməlidir:**

**AZ 1007, Bakı şəhəri, Ənvər Qasımzadə küçəsi,14**

**Telefon: 597-43-23**

## DİQQƏT!

### Müsabiqədə iştirak etmək istəyənlərin nəzərinə!

**2017-2018-ci tədris ilindən başlayaraq, kafedralar üzrə vakant yerləri tutmaq üçün müsabiqədə iştirak edənlər Elmi katibliyə aşağıdakı sənədləri təqdim etməlidirlər:**

1. Rektorun adına ərizə
2. Kadlar uçotunun şəxsi vərəqəsi
3. Kafedradan verilmiş xasiyyətnamə. Xasiyyətnaməni kafedranın müdiri və qrup həmkarlar təşkilatının sədri imzalamalıdır. Xasiyyətnamənin müsbət və ya mənfi olması, o cümlədən bu şəxsin yeni müddətə kafedrada çalışıb və ya çalışmaması əsaslandırılmalıdır. Kafedra müdiri vəzifəsinə iddiaçılara xasiyyətnaməni fakültənin dekanı və həmkarlar təşkilatının sədri imzalamalıdır.
4. Xüsusi formada tərtib edilmiş tərcümeyi-halın çap forması və elektron variantı. Burada şəkil, ad, soyad, bitirdiyi məktəblər, elmi ad və dərəcələr, bildiyi dillər, bildiyi kompüter proqramları, çap olunmuş işlərin sayı, işlədiyi yerlər, hazırkı vəzifədə neçə il çalışması, niyə bu vəzifədə yenidən seçilmək istəməsi, olduğu ixtisasartırma kursları, ailə vəziyyəti, ünvan və telefonu göstərilməlidir.
5. ATU-nun klinika və laboratoriyalarında çalışanlar üçün son beş ilin həkimlik fəaliyyəti barədə klinikadan verilmiş arayış. Arayış klinikanın direktoru və həmkarlar təşkilatının sədri tərəfindən imzalanmalıdır.
6. Son beş il ərzində çap olunan elmi işlərin siyahısı və surətləri. Siyahı müəllif və kafedra müdiri tərəfindən imzalanmalıdır.
7. Açıq mühazirənin və ya açıq təcrübi dərsin videoçəkilişinin diski.
8. Şəxsiyyət vəsiqəsinin surəti

***Qeyd:** ATU-nun əməkdaşı olmayan mütəxəssislər siyahıdakı 3-cü, 5-ci və 7-ci bənddəki sənədlərin əvəzinə, sonuncu iş yerindən verilən xasiyyətnamə, işlədiyi klinikadan həkimlik fəaliyyəti barədə arayış və əmək kitabçasından çıxarışı təqdim etməlidir.*

## Saşa Əli oğlu Əliyev



**ATU-nun Əsaslı kitabxanasının kollektivinə ağır itki üz vermişdir. Kitabxananın Elmi işlər üzrə diektor müavini Saşa Əli oğlu Əliyev dekabrın 10-da ömrünün 66-cı ilində qəflətən dünyasını dəyişmişdir.**

S.Əliyev 1951-ci ildə Qərbi Azərbaycanın Ulu Göyçə mahalının Qanlı kəndində dünyaya göz açmışdı. Erkən yaşlarından valideynlərini itirən Saşanın təhsili, təlim-tərbiyəsi dayısı Əli müəllimin himayəsi altında keçmişdir. Saşa ilk təhsilini Torf qəsəbə məktəbində, orta təhsilini isə Çaxırlı məktəbində başa vurmuşdur. 1971-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) kitabxanaçılıq fakültəsinə daxil olmuş, 1977-ci ildə ali məktəbi kitabxanaçı-biblioqraf ixtisası üzrə bitirmişdir. Sonralar S.Əliyev kənd klubunda müdir, Şəfəq orta məktəbində müəllim işləmişdir.

Taleyinə didərginlik həyatı düşən S.Əliyev 1988-ci ildən Bakıda məşkunlaşmış, Dövlət Statistika Komitəsində iqtisadçı, Azərbaycan Qaçqınlar Cəmiyyətinin ideologiya şöbəsində baş məsləhətçi və "Ulu Göyçə" qəzetində müxbir işləmişdir.

1996-cı ilin may ayından ATU-nun Əsaslı kitabxanasında direktor müavini işləmişdir. O öz biliyini, zəngin təcrübəsini kitabxana işinin nümunəvi təşkilində əsirgəmirdi. Kollektiv üzvlərinin böyük hörmətini qazanmışdı.

Saşa Əliyev öz ixtisasına yaxşı bələd olan mütəxəssis idi. Əsaslı kitabxanada işin müasir tələblərə uyğun avtomatlaşdırılmasında yaxından iştirak edirdi. O, bir neçə xarici dil bilirdi.

Saşa Əliyev həm də incə ruhlu şair idi. Ulu yurdun nisgili, Vətən həsrəti, bəşəri ideyalar, xalq işi uğrunda mübariz insanların tərənnümü onun poeziyasının mövzu və məramını təşkil edirdi. "Dunyamızdan nigaranam" (2002) şeirlər kitabı onun poetik dünyasının ilk yekunu idi. Sonralar ona ata əvəzi olan dayısı Əli Cabbar oğlu Əliyevin xatirəsinə həsr etdiyi "Bir elin dayağı" (2005) kitabı böyük oxucu marağına səbəb olmuşdu.

Azərbaycan Jurnalistlər Birliyinin üzvü idi.

Saşa Əli oğlu təvazökar insan, qayğıkeş valideyn idi.

Onun xatirəsi Əsaslı kitabxana işçilərinin, eləcə də onu yaxından tanıyanların qəlbində həmişə yaşayacaqdır!

**Allah rəhmət eləsin!**

**Əsaslı kitabxananın kollektivi**

# Formaca beyini xatırladır...

**Qoz meyvələrini «ağıl qidası» adlandırırlar. Qədim yunan tarixçisi Herodotun iddiasına görə, qədim Babilistanın kahinləri sadə adamlara onun meyvəsini yeməyi qadağan etmişdilər. Qoz meyvələri əqli fəaliyyətə müsbət təsir göstərir. Qozun ləpəsi formaca beyini xatırladır.**



Qədim kitablarda qozun İrandan Fələstinə daşınması haqqında məlumatlar var. Qədim skiflərdə və romalılarda qoz sevimli qida sayılırdı. Ondan toy ziyafətlərində şirniyyat hazırlanması məqsədilə istifadə edilirdi və yunan qozu nikahın simvolu hesab olunurdu.

Qoz ağacının fitonsid keyfiyyətləri var, onun bitdiyi yerə həşəratlar gəlmir, həmin ərazidə güvə və milçək olmur.

Hippokrat mədə, beyin, ürək, qaraciyər və böyrək xəstəlikləri zamanı qoz meyvələrindən istifadə etməyi məsləhət görürdü. Qozu şəkərli diabet zamanı da tövsiyə etmək olar, çünki tərkibində manqan və şəkəri endirən sink var. Onun tərkibində karbon az olsa da, qaraciyər piylənməsinin qarşısını alan maddələr çoxluq təşkil edir. Tərkibindəki B qrupu vitaminləri, kalium duzları və fosfor uşaq və yeniyetmələrin inkişafına yaxşı təsir edir. Yarpaqlarından hazırlanan islatma və cövhər limfa şəbəkəsinin, orta qulağın və ağızın selikli qişasının iltihablaşma prosesini zəiflədir.

Şərq təbibləri hesab edirlər ki, qoz beyini, ürəyi və qaraciyəri möhkəmlədir. Qədim tacik tibb traktatlarına əsasən südlə qoz ləpələrinin birgə tətbiqi sağlamlığa müsbət təsir göstərir. Onun mədə həzmini yaxşılaşdırmaq üçün tətbiq edilməsi daha yaxşıdır.

Məşhur psixoloq Vladimir Levi qozu beyin üçün bayram adlandırır, çünki onun müntəzəm qəbul edilməsi yaddaşı yaxşılaşdırır.

Məşhur Amerika həkimi Robert Geyl belə qənaətə gəlib ki, gündə 4- 5 ədəd qoz yemək yüksək radiasiya təsirlərindən qorunmaq üçün kifayət edir.

Qoz meyvəsinin arasındakı arakasmələrin tərkibində yod və qələvilər var. Onlardan hazırlanan cövhər qalxanabənzər vəzi möhkəmləndirir, arıqladır, sakitləşdirir, yaxşı yuxu gətirir. Qozun distillə edilmiş ağ neftlə hazırlanan cövhəri hətta metastaz vermiş xərçəng xəstəliyi zamanı da tətbiq olunur.

## Allah rəhmət eləsin!

"Təbib" qəzetinin kollektivi Əsaslı kitabxananın elmi işlər üzrə direktor müavini

**Saşa Əli oğlu Əliyevin**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Xarici dillər kafedrasının əməkdaşları kafedranın baş müəllimi Leyla Məmmədovaya anası

**Sədaqət xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Ailə təbabəti kafedrasının əməkdaşları kafedranın assistenti Kəmalə Rəhmanovaya həyat yoldaşı

**Hacı Nazimin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Ailə təbabəti kafedrasının əməkdaşları kafedranın dosenti Nizami Kərimova həyat yoldaşı

**Almaz xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

I daxili xəstəliklər və reanimatologiya kafedrasının əməkdaşları kafedranın baş laborantı Tünzalə Təhməzbəyovaya xalası

**Tahirə xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

## Etibarsız sayılır

Cəfərova Gülnarə Əli qızına 1990-cı ildə Azərbaycan Tibb Universiteti tərəfindən terapevt ixtisası üzrə verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin II kurs, $171^{a}$ qrup tələbəsi Ədalətli Gülnurə Rəfail qızının adına verilmiş tələbə bileti və qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin VI kurs, $306^{b}$ qrup tələbəsi Əsgərli Ərxan Fazil oğlunun adına verilmiş qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin IV kurs, $45^{a}$ qrup tələbəsi Mirzəyeva Dürdanə İlham qızının adına verilmiş qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin IV kurs, $39^{b}$ qrup tələbəsi Muradlı Arzu Təyyar qızının adına verilmiş qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin III kurs, $1^{b}$ qrup tələbəsi Məmmədova Minayə Mustafa qızının adına verilmiş qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin V kurs, $276^{a}$ qrup tələbəsi Zahidov Rasif Salam oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin III kurs, $220^{b}$ qrup tələbəsi Altrad Mohammedin adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin IV kurs, $255^{a}$ qrup tələbəsi Quliyeva Mələknabat Şəfa qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Stomatologiya fakültəsinin I kurs, $717^{İ\text{-}3}$ qrup tələbəsi Al-Bulanee Amjed Rahem Hasan oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin I kurs, $60^{a}$ qrup tələbəsi Mehmetbeyli Leyla Turgay qızının adına verilmiş qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin VI kurs, $125^{a}$ qrup tələbəsi Aşhraf Rahiqa Muhammad qızının adına verilmiş qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin IV kurs, $35^{a}$ qrup tələbəsi Bayramzadə Fəxri Cavid oğlunun adına verilmiş tələbə bileti və qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin IV kurs, $35^{a}$ qrup tələbəsi Qorçuzadə Nurtac İbrahim qızının adına verilmiş qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin III kurs, $6^{b}$ qrup tələbəsi Nəbili Təbriz Yunus oğlu adına verilmiş tqiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

Baş redaktor
ELDAR İSMAYIL

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
*Əlyazmalar geri qaytarılmır.*

Qəzet "Təbib" qəzetinin kompyuter mərkəzində yığılır, səhifələnir, "Bəxtiyar-4" İKŞ-də çap olunur.

ÜNVANIMIZ:
Mərdanov qardaşları - $98^{c}$
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sayı 1800